©A.S.Əhmədova, Elektron parlament, "Gömrük işində informasiya sistemləri və texnologiyaları" 1-ci beynəlxalq elmi-praktiki konfrans 21-22 dekabr 2009-cu il, Bakı, Azərbaycan, səh. 72-73.

# ELEKTRON PARLAMENT

Aygün Əhmədova, böyük elmi işçi
AMEA İnformasiya Texnologiyaları İnstitutu, Bakı-Azərbaycan
*aygun17shobe@gmail.com*

Bu gün informasiya kommunikasiya texnologiyalarının (İKT) tətbiqi bütün sahələrə effektli təsir göstərdiyi kimi parlamentin fəaliyyətində səmərəliliyin yüksəldilməsinə də mühüm təsir göstərə bilər. Hər bir parlamentin effektli fəaliyyət göstərməsi üçün İKT-nin imkanlarından hansı səviyyədə istifadə olunacağını öncədən müəyyənləşdirməlidir. Belə ki, İKT nin tətbiqi strateji planlaşdırmanı müəyyənləşdirən proqram resursları və fəaliyyət qaydaları kompleksinə, yüksək səviyyədə qəbul edilmiş siyasi qərarlara və aşağıdakı prinsiplərə əsaslanmalıdır [1]:

- ✓ ümumillikdə parlament üçün şəfffaflıq və aşkarılıq təmin edilirsə demək onun hər bir struktur bölməsi və üzvü üçün də bu imkanlar yaradılmalıdır;
- ✓ şəxsi resurslarından və ya imkanlarından asılı olmayaraq bütün vətəndaşlar üçün parlamentin təqdim etdiyi informasiyalara hərtərəfli çıxış imkanın yaradılması;
- ✓ parlament üzvlərinin seçiciləri qarşısında cavabdehliyini artırma mexanizmlərinin yaradılması;
- ✓ parlament və ölkə vətəndaşları arasında dialoqun artırılması;
- ✓ informasiyaya dair müəlliflik hüququnun qorunması, dövlət sirrinə aid olan və fərdi informasiyanın məxfiliyinin təmin edilməsi;
- ✓ parlamentin işinin effektliyinin və rentabelliyinin artırılması;
- ✓ qlobal informasiya cəmiyyətinə inteqrasiya.

İstər seçilmiş bələdiyyə və ya deputat xalqın etimadını doğrultmadıqda vətəndaşlar tərəfindən dövlət və yerli idarəetmə sisteminə qarşı inamsızlıq hissi yaranır. Vətəndaşların hakimiyyətə (dövlətə, siyasi sistemə) inamını artırmaq məqsədilə cəmiyyətin bütün üzvləri və qrupları arasında operativ kommunikasiyanın və informasiya mübadiləsinin təşkili zəruridir.

Seçici seçdiyi deputata öz fikir və təkliflərini çatdırmaq üçün aydındır ki, müəyyən zaman itirməlidir və bu kimi problemlər üzündən bəzən illərlə onlara müraciət edə bilmirlər. Deputatlar qanun layihəsi qəbul edilməmişdən öncə onu seçən vətəndaşın fikirləri əsasında çıxış etmək imkanına malik olmalıdır.

Bu kimi problemlərin həllini, vətəndaşların idarəetmədə iştirakını, tələb və təkliflərinin nəzərə alınması üçün **elektron parlamentin** yaradılması zərurəti meydana çıxır. Vətəndaşların parlament qərarlarının qəbulu prosesində iştirakının təmin edilməsi elektron demokratiyanın əsas prinsiplərindən biri hesab olunur.

Bəzən elektron parlament anlayışı sadəcə olaraq parlamentdə elektron sənəd dövriyyəsinin və elektron səsvermə sisteminin mövcudluğu kimi anlaşılır. Lakin, bu iki amil elektron parlamentin bir hissəsi kimi qəbul edilə bilər. Bu anlayış daha geniş anlamda insanların parlamentin fəaliyyətində aktiv iştirakını özündə ehtiva edir. Vətəndaşların bu proseslərdə iştirakının məhz parlamentin veb-saytında qoyulan imkanlar vasitəsilə reallaşdırılması nəzərdə tutulur.

Veb-sayt sadə struktura malik olmalı və verilən informasiyaların operativliyi qorunmalıdır. Sayta müraciətin hamı üçün açıq və əlyetərli olması bu saytın populyarlığını artırır və müraciət trafiklərini yüksəldir.

Elektron parlament veb-saytında qərarlarının qəbulu, qanun layihələrinin parlamentə təqdim edilməsi, müzakirəsi, səsvermə prosesi və qüvvəyə minməsi aşkarlıq və siyasi plüralizm, sərbəst müzakirə və müstəqil həll olunması prinsipləri əsasında həyata keçirilməlidir. İstənilən vətəndaş bu informasiya ilə tanış olmaqla yanaşı, öz təklif və iradlarını bildirmək imkanına malik olmalıdır. On-layn rejimdə qanunyaradıcılıq prosesinin

inkişaf dinamikasına nəzarət etmək imkanı ilə yanaşı, elektron arxivlərin, hesabatların, plenar iclasların və daimi komitələrin stenoqramları və protokollarının yerləşdirilməsi zəruridir. Saytda eyni zamanda Parlament iclaslarının və müzakirələrinin on-layn rejimdən birbaşa izlənmə sistemi yaradılmalıdır [2].

Hər bir millət vəkili üçün parlament saytında ona aid fərdi bölmənin yaradılması təmin edilməlidir. Bu, vətəndaşların millət vəkilinə sərbəst müraciət etməsinə şərait yaradacaq, onların fəaliyyətindən operativ xəbərdar olma imkanı verəcək. Başqa sözlə, deputatın fəaliyyətinin şəffaflığını təmin edəcək. Belə ki, seçicilər on-layn rejimdə qanunla müəyyən olunmuş qaydada müxtəlif problemlərlə, təkliflərlə, sorğularla müraciət etmək və operativ cavablar almaq imkanına malik olmalıdır.

Vətəndaşların dövlətə inamını artırmaq vasitəsi kimi, vergi ödəyicisi olan vətəndaşın dövlət büdcəsinin müzakirəsində fikirləri nəzərə alınmalı, gəlirlər və xərclər barədə müntəzəm olaraq əhaliyə hesabatlar verilməlidir.

Artıq bir çox ölkələr parlamentin fəaliyyətində vətəndaşların aktiv iştirakını təmin etmək üçün bu və ya digər şəkildə İKT-ni tətbiq edir və elektron parlament layihəsi üzərində işləyirlər.

Bu ölkələrin siyahısında ABŞ, Avstriya, Kanada, İsveçrə, Litva, Ukrayna, Rusiya Federasiyasının Kareliya, Kuzbass Respublikalarını və s. göstərmək olar.

Ölkəmizin qanunverici orqanı olan Milli Məclisdə İKT-nin tətbiqi müstəqillik əldə etdiyimiz vaxtdan başlanmışdır. Hal-hazırda Milli Məclisdə 300-dən çox istifadəçisi olan lokal şəbəkə, müxtəlif xidmətlər göstərən 16 server, internet və daxili intranet şəbəkəsi yaradılmışdır. İclas zalında deputatların səsverməsi elektron səsvermə sisteminin vasitəsi ilə həyata keçirilir. Bunun üçün zalda vahid sistemin tərkib hissəsi olan 135 kompüter quraşdırılmışdır [3]. Avtomatlaşdırılmış iş rejimini, veb-saytın və daxili intranet şəbəkəsinin yaradılmasını elektron parlamentə gedən bir yol kimi qiymətləndirmək olar.

Veb-saytda hər ay üzrə rəhbər vəzifəli şəxslərin qəbul cədvəli, vətəndaşların qəbula yazılması, sorğu və müraciətlər, onlayn müzakirə, dövlət sirri təşkil edən məlumatların siyahısı, iş planı ilə tanışlıq, iclasların gündəliyi, Milli Məclisin fəaliyyəti haqqında hesabatlar, stenoqramlar və protokollar, qanun layihələri və onların müzakirələrində vətəndaşların iştirakı, Milli Məclisinin sessiyalara görə qəbul etdiyi qanun və qərarlara dair statistik məlumatı özündə əks etdirən bölmələr verilmişdir.

Keçən il ərzində Milli Məclisə 500-dən çox elektron müraciətlər, informasiya sorğuları, ərizə, şikayət və təkliflər edilmişdir. Qəbul olunan 146 informasiya sorğusunun yarıdan çoxuna baxılmış və "İnformasiya əldə etmək haqqında" qanunun tələblərinə cavab verəcək şəkildə cavablandırılmışdır. 12 məktub digər əlaqədar dövlət orqanlarına yönəldilmişdir. Digər müraciətlər informasiya sorğusu xarakteri daşımadığından Milli Məclis aparatının müvafiq struktur bölmələrinə göndərilmişdir [4].

## Ədəbiyyat

1. Дрожжинов В., Штрик А., Как создать электронный парламент http://www.rosdeputat.ru/publications/view/20
2. Əhmədova A.S., İnformasiya cəmiyyəti şəraitində insan hüquqlarının reallaşma imkanları, 2009, s. 34,
3. Milli məclis "IKT-nin geniş tətbiq olunduğu dövlət qurumu", 2009, http://parliament.az/?/az/news/view/733/
4. Əzizov R., "Gələcəyin perspektivləri - elektron parlament" "Milli Məclis" jurnalı, http://jurnal.meclis.gov.az/cat.php?id=4 - 31k